AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

10 aprel 2025-ci il
Cümə axşamı

1933-cü ildən çıxır
№ 13 (3725)



# Azərbaycan yeni dünya düzənində

## Bakıda beynəlxalq forum keçirildi

**Aprelin 9-da ADA Universitetində Prezident İlham Əliyevin iştirakı ilə "Yeni dünya nizamına doğru" mövzusunda beynəlxalq forum keçirilib. Dövlətimizin başçısı tədbirdə dünyaya vacib mesajlar verib.**




Müxtəlif ölkələrdən gəlmiş ekspertlərin Azərbaycana səfərlər etdiyini xatırladan Prezident bunun Azərbaycanı daha yaxşı tanımağa, ölkənin nəbzini duymağa imkan yaratdığını söyləyib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycanın tarixi ərazilərinin azad edilməsindən sonra ekspertlərin azad edilmiş ərazilərə səfəri ölkəmizin, münaqişənin tarixi haqqında, həmçinin Azərbaycanın bugünkü reallıqları barədə daha çox məlumat verir.

Prezident İlham Əliyev Cənubi Qafqazda ayırıcı xətlər çəkmək cəhdlərinə diqqət çəkib: "Regionda uzunmüddətli əməkdaşlığa gəldikdə, görə bilərsiniz ki, əgər xəritəyə baxsaq, Azərbaycan burada əsas yer tutur. Bəziləri Azərbaycanı nəinki bu prosesdən, o cümlədən ümumiyyətlə, prosesdən ayırmaq və Cənubi Qafqazda ayırıcı xətləri çəkmək cəhdi göstərir. Lakin bu, birmənalı olaraq uğursuz olacaq".

Ermənistanın hərəkətlərinin Cənubi Qafqaz regionuna inkişaf etmək imkanı yaratmadığını qeyd edən dövlətimizin başçısı forum iştirakçılarının nəzərinə çatdırıb ki, bu region həm iqtisadi, həm də nəqliyyat marşrutları baxımından öz imkanlarını itirdi. Əgər biz Azərbaycan-Gürcüstan münasibətlərinə baxsaq, görə bilərik ki, enerji təhlükəsizliyi, nəqliyyat, sərmayə, siyasi dialoq - bütün bunlar üstünlük gətirir. Əslində, Ermənistan özünü bunlardan məhrum etdi, işğal və təcavüz nəticəsində o, tranzit ölkəyə çevrilə bilmədi.

Dövlətimizin başçısı əlavə edib ki, Azərbaycandan neft, qaz və yaxud digər yüklərin daşınması Gürcüstan ərazisi ilə gedir və Ermənistan bu prosesin bir hissəsi ola bilərdi. Bu, onların səhvidir. Onlar öz gələcək inkişaflarını səhv hesabladılar və beləliklə, özlərini iqtisadi gələcəklərindən məhrum etdilər. Bununla əlaqədar onların real müstəqilliyi əngəlləndi. Onlar "böyük bir Ermənistan" xülyası ilə yaşayırdılar.

Ermənistan ilə Azərbaycan arasında əməkdaşlıq saziş imzalanması ilə başlaya bilər. Bunun üçün isə vaxt itirməli deyil: "Sülh sazişinə gəldikdə, top ermənilərin tərəfindədir və mən bunu dəfələrlə söyləmişəm", - deyə Prezident bildirib.

Azərbaycanın şərtlərini bir daha səsləndirən dövlətimizin başçısı qeyd edib ki, Ermənistandan ərazi bütövlüyü və onların Konstitusiyası ilə bağlı gözləntilərimiz var. Əgər bunlar edilərsə, sülh sazişi imzalana bilər və beləliklə, Cənubi Qafqazda artıq inteqrasiya edilmiş bölgə üçün heç bir maneə qalmayacaq: "Lakin realist danışsaq, bu o demək deyil ki, Ermənistanla dərhal dost olacağıq. Burada müəyyən iqtisadi inteqrasiya haqqında danışmaq tezdir. Lakin kiçik addımlarla başlayaraq etimadı qura bilərik", - deyən dövlətimizin başçısı bildirib ki, bu yaxınlarda təşəbbüslər irəli sürülüb və biz Ermənistanın mövqeyini gözləyirik.

Prezident ABŞ-la Azərbaycan arasında münasibətlərə də toxunub. Qeyd edib ki, Bayden-Blinken administrasiyası dövründə ABŞ-la Azərbaycan arasında münasibətlər böhrana uğramış əlaqələr kimi səciyyələndirilə bilər. Bu da bizim günahımız deyil. Dövlətimizin başçısı qeyd edib ki, hazırda ABŞ-la güclü münasibətlər bu bölgə üçün vacibdir. Azərbaycanın Cənubi Qafqazın aparıcı ölkəsi, Qlobal Cənubun bir hissəsi olduğunu xatırladan dövlətimizin başçısı qeyd edib ki, bizim Qoşulmama Hərəkatında güclü mövqeyimiz, Mərkəzi Asiya ilə yaxşı əlaqələrimiz var.

# Prezidentlər danışıb...

## Aktual məsələlər müzakirə edilib

Aprelin 5-də Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidenti İlham Əliyevə zəng edib. Dövlət başçıları ikitərəfli və çoxtərəfli gündəliyin aktual məsələlərini müzakirə ediblər. Telefon danışığı zamanı regional, o cümlədən Türk Dövlətləri Təşkilatı və İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində qarşılıqlı fəaliyyət müzakirə olunub.

# Əlaqələr güclənir

## Qarşılıqlı səfərlər intensivləşib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 8-də İran İslam Respublikasının yol və şəhərsalma naziri, Azərbaycan-İran İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Birgə Komissiyasının həmsədri Fərzanə Sadiqi qəbul edərkən iki ölkənin yüksəksəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin intensiv xarakter daşımasını məmnunluqla qeyd edib. Dövlətimizin başçısı bunun ikitərəfli əməkdaşlığımızın daha da inkişaf etdirilməsinə yaxşı imkan yaratdığını deyib.

# Beynəlxalq toplantı

## Nazirlər Bakıya gəlib

Aprelin 4-də Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclasları keçirilib. Toplantıya Azərbaycan və Avropa İttifaqı daxil olmaqla 24 ölkə, 7 beynəlxalq maliyyə institutu və 42 enerji şirkəti qatılıb. Dövlətimizin başçısı İlham Əliyev tədbirdə çıxış edib.

# Enerji töhfəmiz

## İxrac coğrafiyası genişlənir

Azərbaycan enerji sahəsində Avropa bazarında ixrac coğrafiyasını genişləndirmək istəyir. Bunu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 4-də Avropa İttifaqının enerji və mənzil məsələləri üzrə komissarı Dan Yorgenseni qəbul edərkən bildirib. Dövlətimizin başçısı enerji sahəsində Avropa bazarının bizim üçün əsas bazar olduğunu vurğulayıb.

# Rəsmi xəbərlər

- Azərbaycan ilə Rusiya arasında əlaqələrin inkişafında böyük xidmətlərinə və uzunmüddətli səmərəli ictimai fəaliyyətinə görə Məmmədbağır Cavad oğlu Əliyev "Şərəf" ordeni ilə təltif edilib. Dövlət başçısı Prezident İlham Əliyev bununla bağlı aprelin 8-də Sərəncam imzalayıb.
- Azərbaycan Prezidentinin 9 dekabr 1999-cu il tarixli Fərmanı ilə təsdiq edilmiş "Dövlət Sirrinin Mühafizəsi üzrə İdarələrarası Komissiya haqqında Əsasnamə"də dəyişiklik edilib. Prezident İlham Əliyev aprelin 7-də bununla bağlı Fərman imzalayıb.
- Prezident İlham Əliyev aprelin 4-də Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi S.Ə.Şirvaninin anadan olmasının 190 illiyinin qeyd edilməsi ilə bağlı Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev aprelin 4-də Elm və Təhsil Nazirliyinin tabeliyindəki elmi müəssisələrin fəaliyyətinin optimallaşdırılması, səmərəliliyinin artırılması ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev aprelin 1-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Qanun imzalayıb.

# Təşəbbüslərimiz reallığa çevirilir

## Ölkəmizin dünyada nüfuzu günbəgün artır

Azərbaycan etibarlı tərəfdaş kimi mövqeyini günbəgün möhkəmləndirir. Ölkəmizin enerji sektorunda qazandığı uğurların xronologiyasına diqqət yetirdikdə gündəmə gətirdiyi hər bir layihəni uğurlu sonluqla başa çatdırdığını və Avropanın eneji təlükəsizliyinə davamlı töhfələr verdiyini böyük əminliklə qeyd edirik.

Dövlət başçısı İlham Əliyev daim bildirir ki, əgər əvvəlki dövrlərdə dediyi məsələlər öz həllini tapmasaydı, bu gün Cənub Qaz Dəhlizindən söhbət belə gedə bilməzdi. Aprelin 4-də Bakıda keçirilən Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 11-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 3-cü iclaslarının açılışı mərasimində cənab İlham Əliyev diqqəti birgə əməkdaşlıq nəticəsində reallığa çevrilən layihələrə, xüsusilə Cənub Qaz Dəhlizinə yönəldərək bildirdi ki, Cənub Qaz Dəhlizi hamımız üçün böyük uğur hekayətidir.

Bu gün 3500 kilometrlik inteqrasiya edilmiş boru kəməri sistemi bir çox ölkələrin enerji təhlükəsizliyi üçün əsas arteriyadır. İndi o, tam gücü ilə işləyir. İstər Cənubi Qafqaz Boru Kəməri, istərsə də TANAP və ya TAP - Cənub Qaz Dəhlizinin üç ayrılmaz hissəsi tam dolu işləyir.

Dövlətimizin başçısı İlham Əliyev tədbirdə qeyd edib ki, bir neçə ildən sonra bir çox digər neft-qaz yataqlarının da istismarına başlanılacaq. AÇG, "Şahdəniz" və "Abşeron" - bütün bunlar bu gün bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edən neft və qaz yataqlarıdır. Boru kəmərlərinin çəkilməsi, Bakı-Tbilisi-Ceyhan, Bakı-Supsa neft boru kəmərləri və həmçinin Cənub Qaz Dəhlizi bütün iştirakçılarla əməkdaşlıq sayəsində görülmüşdür. Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 10-cu toplantısından ötən dövr ərzində bu sahədə əldə olunan uğurlar, imzalanan sənədlər təhlil edildi və hədəflər, gələcək planlar açıqlandı.

Bütün çıxışlarda hədəflərə nail olmaq üçün imkanların mövcudluğu əsaslı şəkildə diqqətə çatdırılaraq birgə səylərin göstərilməsinin vacibliyi bildirildi. Prezident İlham Əliyev çıxışında vurğuladı ki, Azərbaycan tərəfindən başlanmış və Avropa Komissiyası tərəfindən dəstəklənmiş bu vacib toplantı enerji təhlükəsizliyi sahəsində yanaşmaların formalaşdırılmasında, həmin məsələlərin həllində və birgə səylərimizin əlaqələndirilməsində mühüm rol oynamışdır. Həmçinin bu gün komanda genişlənir. Bu isə əməkdaşlığın çox yaxşı təzahürüdür.

Günümüzün reallığı budur ki, bu tərəfdaşlıq bərpaolunan enerjiyə və enerji sistemlərimizin daha sıx bir-birinə bağlı olmasına söykənir. Azərbaycan Avropa İttifaqına bərpaolunan enerji və karbohidrogenlərin ixracatçısına çevrilmək potensialına malikdir. Ümumiləşdirilmiş şəkildə qeyd etsək, Azərbaycanın malik olduğu enerji resurslarından səmərəli istifadəsi həm iqtisadi imkanlarını genişləndirir, həm də beynəlxalq aləmdə rolunu artırır. Bir sözlə, Azərbaycanın təşəbbüsləri reallığa çevirilir.

Nazir Şəkidə vətəndaş qəbulu və sıra baxışı keçirib 2

Ən yaxşı gənc həmkarlarımız 2

Cibgirliyin onlayn forması 3

Türkün tarixi yurdu: Qafan 4

## RESPUBLİKA XƏBƏRLƏRİ

### Nazirlər görüşüb

Aprelin 8-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov İsrail Dövlətinin xarici işlər naziri Gideon Saar ilə görüşüb. İki ölkə arasında siyasi, iqtisadi, ticarət, investisiyalar, humanitar sahələr üzrə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

### Sülhə yenə atəş açıldı

Aprelin 8-i saat 19:20-dən 22:30-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Qaraiman və Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun mövqelərini atıcı silahlardan fasilələrlə atəşə tutub.

### Qarabağda kənd təsərrüfatı dirçəldilir

Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyəti Kəlbəcər və Ağdərədə təsərrüfatlara baş çəkib, fermerlərlə görüşüb, ərazidə aparılan tikinti işləri ilə tanış olublar. Keçirilən iclasda qoyunçuluq və arıçılıq təsərrüfatlarının işğaldan azad edilmiş ərazilərdəki yaylaqlara köç prosesinin təşkili, kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı müzakirələr aparılıb.

### Qeyri-neft-qaz ixracı artıb

Bu ilin yanvar-mart aylarında Azərbaycanın qeyri-neft-qaz sektoru üzrə ixracının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 14,7 faiz artaraq 771,9 milyon ABŞ dolları təşkil edib. Məlumata görə, o cümlədən son 1 ildə ölkənin yeyinti məhsullarının ixrac dəyəri 15,1 faiz artaraq 224,7 milyon ABŞ dolları olub.

### Cəbrayılda televizor istehsal ediləcək

Cəbrayıl rayonunda “Araz Vadisi İqtisadi Zonası” Sənaye Parkında smart televizorlar istehsal ediləcək. "Taube Electronics" MMC-yə Sənaye Parkının rezidenti statusu verilib. Rezident parka 3,5 milyon manat investisiya yatıracaq. Çinin qabaqcıl texnologiyalarından istifadə ediləcək müəssisənin illik istehsal gücü 19 500 ədəd televizor təşkil edəcək.

### Qarabağda tələbə sayı arta bilər

Qarabağ Universitetində birinci kursda 1100-dən çox tələbə təhsil alır və 200 əməkdaş çalışır. Xankəndidə keçirilən “Yeni dünya nizamına doğru” VII ADA Siyasi Forumunda bildirilib ki, 2026-cı ildə kənd təsərrüfatı fakültəsi, həmçinin İncəsənət və Turizm fakültələrinin açılması nəzərdə tutulur.

### İqtisadi artım proqnozu yaxşılaşıb

Asiya İnkişaf Bankı (AİB) Azərbaycan iqtisadiyyatının 2025-ci ildə 3,4 faiz, 2026-cı ildə isə 3,3 faiz artacağını proqnozlaşdırır. Əvvəlki qiymətləndirmələrlə müqayisədə cari il üçün ÜDM artım tempi proqnozu 0,8 faiz bəndi yaxşılaşdırılıb.Beləliklə, AİB 2025-2026-cı illərdə Azərbaycan iqtisadiyyatının orta illik artımını 3,35 faiz səviyyəsində qiymətləndirir.

### Zəngilanlılar da qayıdacaq

Zəngilan şəhərinin birinci yaşayış məhəlləsinin tikinti işləri həyata keçirilir. İlk yaşayış məhəlləsi şəhərin mərkəzi hissəsində yerləşir. Burada 12 binanın tikintisi aparılır. Tikilən binalarda 104 mənzil var. Tikinti işlərinin 80 faizi yekunlaşıb, işlər tam başa çatdıqdan sonra sakinlərin köçü nəzərdə tutulur.

### Məktəbli avtobusları işə düşür

Yeni tədris ilindən "Məktəbli avtobusu" layihəsi tətbiq olunacaq. Elm və təhsil naziri Emin Əmrullayev jurnalistlərə açıqlamasında bildirib ki, layihənin əsas məqsədi paytaxt məktəblərinə gedən uşaqlar üçün yol-nəqliyyat sistemində sıxlığın qarşısını almaqdır.

### Mina terroru

Azərbaycan torpaqlarına Ermənistan tərəfindən basdırılmış minaların sayı 1,5 milyondan çoxdur. Ermənistanın işğalı zamanı ərazilərimizdə 1 milyon 166 min 702 hektar ərazinin minalandığı güman edilir. İndiyə qədər 140 min hektardan çox ərazi minalardan təmizlənib. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərimizdə ötən 8 gün ərzində 4 mina hadisəsi qeydə alınıb.

### Doğma yurdlarında təhsilə başladılar

Ağdərə rayonu Suqovuşan və Ağdam rayonu Sarıcalı kənd tam orta məktəblərində tədris prosesinə başlanılıb. Suqovuşan kənd tam orta məktəbi 144, Sarıcalı kənd tam orta məktəbi isə 360 şagird yerlikdir. Məktəblər üçün nəzərdə tutulan ərazidə idman meydançası inşa olunub, oyun və istirahət sahələri yaradılıb.

# Nazir Şəkidə vətəndaş qəbulu və sıra baxışı keçirib

## Vətəndaşların müraciətləri dinlənilib, problemlərinin həlli üçün tapşırıqlar verilib

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov aprelin 7-də və 8-də Şəki Şəhər Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə Şəki şəhərindəki ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra Şəki Şəhər Rayon Polis Şöbəsində Şəki, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ şəhər və rayonlarından qəbula gələn 312 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib. Səfər çərçivəsində general-polkovnik V.Eyvazov bölgə üzrə polis orqanlarında sıravi və kiçik rəis heyətinə xidmətə qəbulla bağlı sıra baxışı keçirib. Vətən müharibəsinin 34 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 198 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.









# Ən yaxşı gənc həmkarlarımız

## Onların bilik və bacarıqları yüksək qiymətləndirilir

DİN-in müvafiq Komissiyası ən yaxşı gənc əməkdaşların müəyyən edilməsi üçün keçirdiyi imtahanları başa çatdırıb. Artıq müsabiqənin nəticələrinə görə qalib elan olunan əməkdaşlar mükafatlandırılıblar da.

Məlum olduğu kimi, cinayətkarlığa qarşı mübarizə fasiləsiz prosesdir. Bu isə qazanılmış təcrübənin gənc polislərə öyrədilməsi və yeni əməkdaşların da çağın innovativ yanaşmalarını tətbiq etməklə, bu mübarizəni davam etdirmək kimi bir zərurət meydana çıxarır. Gənc əməkdaşların potensialının aşkarlanması, onların peşəkarlıq səviyyələrinin yüksəldilməsi bu mənada bayraq dəyişimi, estafeti yeni ardıcıllara ötürmə mahiyyəti daşıyır. Artıq uzun illərdir daxili işlər orqanlarının əməkdaşları arasında keçirilən ən yaxşı gənc əməkdaş müsabiqəsi ilə polislərə bilik və bacarıqlarını sərgiləmək, özlərini təsdiq etmək imkanı verilir.

Müsabiqə, xidməti fəaliyyətində uğurlu nəticələri ilə fərqlənən, yüksək nəzəri biliklərə və normativ hüquqi aktları təcrübədə düzgün tətbiq etmə bacarığına malik olan, müasir iş metodlarına meyilli, geniş dünya görüşlü gənc əməkdaşları müəyyən etmək, onların peşəkarlıq səviyyələrini yüksəltməyi stimullaşdırmaq məqsədilə hər il keçirilir.

### Strateji hədəflər müəyyənləşir

Ancaq, xüsusi ilə qeyd edilməlidir ki, bu müsabiqənin məramı təkcə bununla kifayətlənmir. Burada, eyni zamanda, daha bir neçə strateji hədəfə nail olunduğunu deyə bilərik.

Birincisi, müsabiqənin qaydalarına uyğun olaraq, əsasən, gənc müstəntiqlərin, təhqiqatçıların, post-patrul xidmətinin tağım komandirlərinin, sahə rəisləri və inspektorların, cinayət axtarış üzrə əməliyyat müvəkkillərinin bilik və bacarıqları yoxlanılır. Yəni cinayətkarlıqla mübarizənin avanqardı, belə demək mümkünsə, ön cəbhəsi sınaqdan keçir. Bu xidmət sahələrində əməkdaşların hazırlıq səviyyəsi “cinayətkarlıqla



mübarizənin müqəddəratını həll edir” desək, yəqin ki, bununla hamı razılaşar. Uzun sözün qısası, müsabiqə iştirakçıların mübarizə kəsərini bir qədər də artırır.

İkincisi, daxili işlər orqanlarının nə qədər bilikli, peşəkar əməkdaşlardan komplektləşdirilməsinin başqa bir indikatorudur bu mərhələ. Özünü sınayan və seçilən əməkdaşların vəzifədə irəli çəkilmə perspektivi, əlbəttə, böyük motivasiya qaynağıdır. Ancaq, bununla bərabər, itirakçıların hazırkı bilik və bacarıqlarına əsaslanıb gələcəkdə mübarizənin hansı qüvvə hesabına aparılacağı barədə də ümumi fikir yürütmək mümkündür.

### Sağlam rəqabət inkişaf deməkdir

Üçüncü vacib məsələ, ən yaxşıların müəyyən edilməsinin yerlərdə şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinə təsiri ilə bağlıdır. Şəffaflıq prisinsipləri əsasında əməkdaşın öz biliyini, bacarığını nümayiş etdirməsi, buna adekvat olaraq qarşılığını görməsi kollektivdə sağlam rəqabət üçün münbit zəmin yaradır. Bir qədər sadə dillə ifadə etsək, yaradılan bərabər şərait və şərtlər ən yaxşılara bənzəmək istəyənlərə geniş imkanlar açır, buna inam yaradır.

Bu, dolayısı ilə vətəndaş məmnunluğunu da artıran əsas faktordur. Çünki polislər yalnız cinayətkarlarla, qanunu pozanlarla “işləmirlər”, onlar həm də hüquq və azadlıqlarının müdafiəsinə ehtiyac duyan vətəndaşların müraciət etdikləri ilk səlahiyyətli şəxslər olurlar adətən. Deməli, yüksək nəzəri biliklərə və normativ hüquqi aktları təcrübədə düzgün tətbiq etmə bacarığına sahib olan qanun keşikçilərinin çoxalması nəticə etibarı ilə hər rayonda, hər kənddə sakinlərin polisin xidmətindən məmnuniyyətini artırır.

Ayrıca olaraq onu da qeyd edək ki, xidməti hazırlığı test-imtahan üsulu ilə, eləcə də fiziki hazırlıq və silahsız özünümüdafiə qabiliyyətləri yoxlanılaraq qiymətləndirilən müsabiqə iştirakçıları üçün mükafat da nəzərdə tutulur. Yəni yüksək nəticə göstərən gənc əməkdaş təkcə vəzifədə irəli çəkilmə kimi şəxsi üstünlük əldə etmir, həm də pul mükafatı qazanır. Mükafatın məbləği də az deyil, müvafiq yerlərə uyğun olaraq 3000, 2000 və 1500 manat arasında dəyişir. Yeri gəlmişkən, son müsabiqənin nəticələrinə görə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun əmri ilə 14 əməkdaş 3 min, 13 əməkdaş 2 min, 15 əməkdaş isə min beş yüz manat məbləğində pulla mükafatlandırılıb.

Əlbəttə, ölkəmizdə hökm sürən sabitliyin qorunmasında, cinayətkarlığa qarşı kəsərli mübarizənin bütün mərhələsində hər bir əməkdaşın özünəxas rolu vardır. Məhz birgə səylərin, gərgin əməyin nəticəsidir ki, Azərbaycanı dünya ölkələri arasında sabitlik adası kimi brendləşdirə bilmişik. Bəlkə elə bu fakt özü bəs edir ki, ən yaxşı polis Azərbaycan polisidir qənaətini ucadan, hamının eşidə biləcəyi tərzdə cəsarətlə səsləndirək.

*Rəşad Mehtiyev*
*polis baş serjantı*

# Oğulların ata yolu…

## Torpaq Vətən olanda müqəddəsləşir

Aprelin 6-da ANAMA-nın əməkdaşı Heydər Xankişiyevin xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə minaya düşməsinin, Ağdamın Qalayçılar kəndi ərazisində baş vermiş mina partlaması nəticəsində 3 nəfərin yaralanmasının kədər yükünü çiynimizdən qaldırmağa macal tapmamış aprelin 7-də səhər saatlarında Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusu Əsgər Musayevin Cəbrayıl rayonunda minaya düşərək həlak olması xəbəri ölkə gündəmini zəbt etdi.

Nəzərlər yenə də Ermənistana dikildi. Çünki birinci Qarabağ müharibəsindən sonra və Vətən müharibəsinə qədər torpaqlarımızın Ermənistanda istehsal olunan "səssiz ölümlərlə" çirklənməsi faktdır. İşğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi ona görə ləngiyir ki, ermənilər mina xəritələrini bizə təqdim etmirlər.

Təkcə Ağdam ərazisində 100 mindən artıq mina basdırılıb. Bu gün bütün gücünü böyük qayıdışın reallaşmasına səfərbər edən






dövlətimizin görünən düşməndən daha təhlükəli olan görünməyən düşmənlə mübarizəsi təəssüf ki, itkisiz ötüşmür.

İtki sözün hər mənasında heç nə ilə əvəz olunmur. Yeri gəlmişkən, vəzifə borcunu yerinə yetirərkən ağır xəsarət alan Heydər Xankişiyev atasını birinci Qarabağ müharibəsində itirib. Erməni terrorunun can aldığı ailənin başçısı olan Əli Xankişiyev polis əməkdaşı idi.

1988-ci ildə Bakıda xidmətə başlasa da məlum hadisələrdən sonra doğma yurdunda xidmət etməyə qərar verir.

Ermənistanın ərazi iddiaları müharibəyə çevriləndə isə o da silaha sarılıb Vətənin müdafiəsinə qalxır. Polis baş serjantı olmuş Əli Xankişiyev 1991-ci ilin 14 noyabrında Cəbrayıl rayonunda, oğlu Heydərin minaya düşdüyü yerdə qəhrəmancasına şəhid olur.

Bu gün şəhidimizin adını daşıyan oğlu Əli Xankişiyev də sıralarımızda Vətənə, dövlətə xidmət edir, sabitliyi qoruyur. O, İmişli RPŞ-nin Post-Patrul Xidməti Bölüyünün əməkdaşı, polis baş serjantıdır.

İnanırıq ki, Xankişiyevlər ailəsi bu itkilərdən sarsılmayacaq, əksinə ata yolu gedən oğulların qəhrəmanlıqları dillərdə dastan olacaq.

*T.Hafiz*

# Cərimə tətbiq ediləcək

## Görülən tədbirlər vətəndaşların təhlükəsizliyinə xidmət edir

Piyadaların iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinin qarşısının alınması və qəzaların sayının minimuma endirilməsi istiqamətində sürücülərə polis tərəfindən çağırış edilir, mütəmadi olaraq nəzarət-profilaktiki tədbirlər həyata keçirilir.

Bu günlərdə Bakı Şəhər BPİ DYP İdarəsinin vətəndaşlara müraciətində dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq bəzi sürücülərin nəqliyyat vasitələrini piyadaların rahat və təhlükəsiz hərəkəti üçün nəzərdə tutulan səkilərdə park etməsi diqqət çəkib.

Müraciətdə qeyd olunur ki, belə hallar piyadaların avtomobil yolunda hərəkət etmək məcburiyyətində qalmasına və onların iştirakı ilə baş verə biləcək yol-nəqliyyat hadisələrinə real zəmin yaradır.

Odur ki, vətəndaşların həyatına təhlükə yaradan, mövcud qanunvericiliyin tələbinə əsasən səkilərdə nəqliyyat vasitələrinin dayanma və durma qadağasına məhəl qoymayan sürücülər barəsində Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 346.9-cu maddəsinə əsasən 2 cərimə balı və 60 manat məbləğində cərimə tətbiq ediləcək.

Yuxarıda sadalananlarla yanaşı, polisin ictimaiyyətə çağırışında sürücülərdən dayanma və durma qaydalarına ciddi şəkildə riayət etmələri, yol hərəkətinin ən müdafiəsiz iştirakçıları olan piyadalara manea yaratmamaları da öz əksini tapır.

# Cibgirliyin onlayn forması

## Bank kartlarımızı kiberdələduzlardan necə qoruyaq?

**Etiraf edək ki, bir neçə il öncə bank kartlarına müdaxilə ilə bağlı qeydə alınan cinayət faktları və onların açılması günümüzün reallığında çox asan görünür.**

Adətən yaşlı insanları aldatmaq yolu ilə onların kartlarından pulları çəkən şəxslərin tutulmasında vaxt itirməyən və ya oğurluqla əldə edilmiş kartlara müdaxilənin qarşısını vaxtında alıb cinayəti isti izlərlə açan polisin bu gün mübarizə metodunu zamanın tələbinə uyğun qurmasının əsas səbəblərindən biri cinayətlərin "müasirləşməsi", innovativləşməsidir.

### "Tələsik və kritik suallar"

Məhz belə olan halda, daha doğrusu, kiberdələduzluğa qarşı mübarizədə az qala hər gün yeni təhdidlərin ortaya çıxdığını nəzərə alan polisin adekvat çağırışlar etməsi də başadüşüləndir.

Qeyd edək ki, bu çağırışlar, paytaxtda və yerlərdə maarifləndirmə tədbirlərinin keçirilməsi cəmiyyət tərəfindən müsbət qarşılanır. Çünki məqsəd həm vətəndaşın pulunu qorumaq, həm də baş verə biləcək daha bir kibercinayətin qarşısını almaqdır.

Polisin cəmiyyətə növbəti çağırışında da kiberdələduzların bank kartı istifadəçilərinə şübhəli zənglər edərək və ya mesajlar yazaraq bankların adından hərəkət etmələri, həmçinin xarici nömrə ilə əvvəlcədən hazırlanan ssenarilərə əsasən vaxtın olmamasını əsas gətirərək tələsik kritik suallar verib təşviş, həyəcan yaratmaları ifşa olunur.

Bu fikri heç bir bank əməkdaşı sizə zəng vurub demir və deyə bilməz. Çünki hansı bankın müştərisi olmanızdan asılı olmayaraq sizin hesabınız tam məxfidir və ondan yalnız siz məlumatlısınız.

### "Hesabda itki riski yaranıb, kartınıza müdaxilə var"

Dələduzların isə məqsədi hansı yolla olursa-olsun sizin şəxsi məlumatlarınızı oğurlayıb pulunuzu ələ keçirməkdir. Yəni sizdən bank kartının üzərində olan 16 rəqəmi, CVV nömrəsi, bankınızın sizə göndərdiyi OTP və ya 3D təhlükəsizlik kodu istənilirsə, deməli, bu dələduzların növbəti oyunudur.

Necə ki, aprelin 7-də dələduzlar ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla - 17451, 16000, 6697, 6321, 6000, 5000, 3700, 2000, 1968, 1800, 960, 420, 380, 250, 50, ümumilikdə 67 min manat pul vəsaitlərini bank kartlarından oğurlayıblar. Kibercinayətkarların cinayətkar niyyətlərini həyata keçirmələrinə kömək edən ən kiçik səhv bank kartlarınızdan oğurlanan pulunuzun saxta ofşor hesablara köçürülməsi ilə nəticələnir ki, onu geri qaytarmaq heç bir halda mümkün olmur.

Sxemlərin tez-tez dəyişdiyi, lakin prinsiplərin dəyişmədiyi kiber məkanda polisin bu çağırışları vətəndaşların dələduzların növbəti qurbanı olmaq riskini azaltmağa xidmət edir. Əməl etmək arxayınlıq, sığortalanmaq, qulaqardına vurmaq isə bədəli olmayan peşimanlıqdır.

# Yenə narkotiklə tutuldu

## Narkotiki İran vətəndaşından əldə edibmiş

Daxili İşlər Nazirliyi Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən daxil olan məlumat əsasında paytaxt ərazisində keçirilən əməliyyat zamanı əvvəllər narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuş 27 yaşlı Ruslan Nəsirov tutulub. Ondan 20 kiloqram tərkibi zərərli maddələrlə zənginləşdirilmiş marixuana aşkarlanıb.

Saxlanılan şəxs ifadəsində narkotik vasitələri şəxsiyyəti istintaqla araşdırılan İran vətəndaşı vasitəsilə İmişli rayonu ərazisindən götürdüyünü və ayrı-ayrı ünvanlara çatdıraraq maddi gəlir qazanmaq niyyətində olduğunu bildirib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb. R.Nəsirov barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib. Onun daxil olduğu narkoşəbəkənin digər üzvlərinin də şəxsiyyətlərinin müəyyənləşdirilərək cinayət məsuliyyətinə cəlb olunmaları istiqamətində əməliyyatlar davam etdirilir.

# Arzuları polis olmaqdır

## Xidmətə təşviqat işləri davam etdirilir

Gənclərin daxili işlər orqanları sistemində təhsilə və xidmətə təşviq edilməsi məqsədilə Şirvan-Salyan Regional Gənclər və İdman İdarəsinin DİN-lə birgə təşkilatçılığı, Şəxsi Heyətlə İş İdarəsinin və Daxili Qoşunların nümayəndələrinin iştirakı ilə Şirvan və Biləsuvar şəhərlərində gənclərlə növbəti görüş keçirilib.

Tədbirdə sözügedən rayonların məktəblərinin yuxarı sinif şagirdləri iştirak edib. Şəxsi Heyətlə İş İdarəsinin şöbə rəisi polis polkovnik-leytenantı Firdovsi Nasirov, baş inspektor polis





polkovniki Laçın Paşayev gələcəkdə polis olmaq istəyənlərin arzularını reallaşdırmaq üçün dövlətimiz tərəfindən hər cür şəraitin yaradıldığını diqqətə çatdırıblar.

Yeniyetmə və gənclərin DİN sistemində təhsil almaları, eləcə də xidmətə qəbul qaydalarını ətraflı izah edən natiqlər polis peşəsinin incəliklərini yiyələnmək və əsl peşəkar kimi formalaşmaq üçün bu gün DİN-in Polis Akademiyasının qapılarının savadına, bacarığına güvənən hər bir gəncin üzünə açıq olduğunu vurğulayıblar.

Sonra gəncləri maraqlandıran suallar cavablandırılıb, onlara təbliğat bukletləri paylanılıb.

*"Polis"*

# Polis keçmiş məhkumları saxladı

## Onlar Sumqayıtda silsilə oğurluqlar ediblər

Sumqayıt şəhəri ərazisində oğurluq hadisəsi qeydə alınıb. Belə ki, bir nəfər polisə müraciət edərək yaşadığı evdən 10 min manat dəyərində qızıl-zinət əşyalarının oğurlandığını bildirib.

Sumqayıt ŞPİ 4-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən, əvvəllər məhkum olunmuşlar - 36 yaşlı E.Axundov və 33 yaşlı X.Hümbətov müəyyən edilərək saxlanılıblar.

Aparılan araşdırmalarla E.Axundovun əvvəllər məhkum olunmuş 35 yaşlı A.Ağayevlə birgə şəhər ərazisində yerləşən daha iki evdən pul və 6000 manat dəyərində qızıl-zinət əşyaları oğurladığı məlum olub. Əməli törətməkdə şübhəli bilinən A.Ağayevin saxlanılması da təmin edilib.

*"Polis"*

# Veteranların təşəbbüsü

## Şagirdlər "Açıq qapı"dan keçdilər

DİN-in Polis Akademiyasının növbəti "Açıq qapı"sından paytaxtın Nərimanov rayonundakı 82 və Alı Mustafayev adına 202 nömrəli tam orta məktəblərin şagirdləri Nərimanov rayonu Polis İdarəsinin Veteranlar şurasının sədri, təqaüddə olan polis polkovniki Ramiz Məmmədov, sədr müavini, təqaüddə olan polis polkovniki Eyvaz Nurməmmədov və yetkinlik yaşına çatmayanlarla profilaktiki işin təşkili bölməsinin baş inspektoru, polis mayoru Sabir Seyidovla birlikdə keçiblər.

Qonaqlar Akademiyada yaradılmış təhsil mühiti, o cümlədən tədris korpusları, kriminalistik təlim şəhərciyi, mühazirə zalları, elektron kitabxana, "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, auditoriyalar, kursant yeməkxanası, qapalı atıcılıq tiri və idman şəhərciyi ilə tanış olublar.

Əməkdaşlar tərəfindən Polis Akademiyasının tarixi, kursantların maddi, sosial təminatları və Akademiyada təhsilin üstünlükləri barədə geniş məlumatlar verilib, həmçinin rəsmi saytda yerləşdirilmiş "Virtual Akademiya" platformasından istifadə edərək tədris müəssisəsi ilə tanış olmaq imkanı da şagirdlərin diqqətinə çatdırılıb.

Şagirdlərə Polis Akademiyası haqqında məlumatları özündə əks etdirən lifletlər paylanılıb, onları maraqlandıran suallar cavablandırılıb və xatirə şəkilləri çəkilib.

*"Polis"*

# Şöbə əməliyyat keçirdi

## Oğurluq etməkdə şübhəli bilinənlər saxlanıldı

Nərimanov rayonu ərazisində bir nəfərin "KamAZ" markalı av-



tomobilindən 850 manat dəyərində 2 ədəd akkumulyatorun oğurlanması barədə polisə məlumat daxil olub.

Nərimanov RPİ 17-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 36 yaşlı F.Rəcəbov müəyyən olunaraq saxlanılıb. Bundan başqa, rayon ərazisində yerləşən idman zallarının birində bir nəfərə məxsus içərisində 4000 manat, sürücülük vəsiqəsi və bank kartları olan pulqabını oğurlamaqda şübhəli bilinən 38 yaşlı M.Rəhimovanın saxlanılması da təmin edilib. Araşdırmalar aparılır.

# Türkün tarixi yurdu: Qafan

## Zəngəzur dəhlizi ilə Qafana da gedəcəyik

Qafan rayonu Zəngəzur mahalında önəmli yer tutur. Naxçıvanla Qarabağ arasında dağ silsilələri arası ilə uzanan bu mahal Bərgüşad, Zəngəzur və Mehri dağ silsilələri əhatəsində dağlıq ərazidə, Gığı və Oxçu dərələrində yerləşir. 1920-ci ilə qədər Gəncə quberniyasının Zəngəzur qəzasının əyaləti olmuş, 1917-20-ci illərdə baş verən siyasi oyunlar nəticəsində Zəngəzurun digər bölgələri kimi Qafan da Ermənistan SSR-in inzibati rayonuna çevrilmiş və 9 sentyabr 1930-cu ildən müstəqil rayon kimi fəaliyyət göstərir.

Qafan rayonu cənubdan Zəngilan, Qubadlı, şərqdən Gorus, Qarakilsə, cənubi-qərbdən isə Mehri rayonları ilə sərhəddir. Qafan rayonuna dəmiryolu, avtomobil və təyyarə ilə gediş-gəliş mümkündür.

Qafan rayonu ərazisində ulu babalarımızın yaratdığı maddi-mədəniyyətin izləri eramızdan əvvəlki dövrlərə gedib çıxır. Xüsusilə Qafandakı qədim oğuz qəbirstanlıqları, kitabələr, qəbir daşları uzaq keçmişimizdən - VII-X yüzilliklərdən xəbər verir. Təkcə Qafan rayonunda qeydə alınmış 200-dən artıq kənd, oba, çay, göl, dağ, qala və b. coğrafi adlar türkdilli toponimlərdir. Min illər boyu mövcud olan Qapıcıq, Xusdub, Pirhəmzə, Piricavidin və s. adlar bunun bariz nümunəsidir. Bunu xəritələrdə, atlaslarda, poçt kitablarında, Ermənistanın toponimləri ilə bağlı çap olunan lüğətlərdə yüzlərcə Azərbaycan-türk mənşəli sözlər də sübut edir. Zəngəzurun, eləcə də Qafanın faciəsi 1915-ci ildə başlayıb 1989-cu ildə bitdi.

Ötən əsrdə daşnak hökuməti qaniçən Andranikin, Nijdenin, Kanayanın (Dro) köməyi ilə 1918-ci il dekabr ayının axırınadək Qafanda olan 100-dən artıq azərbaycanlı kəndində qırğınlar törətdi. Rayon əhalisinin əksəriyyətini təşkil edən azərbaycanlılar (40 min nəfərdən artıq adam) Naxçıvana, Ordubada və Qarabağın müxtəlif rayonlarına pənah apardılar. Andranikin Qafanda törətdiyi qanlı qırğınları



təsəvvür etmək üçün o vaxt vurulmuş rəsmi teleqramlar kifayətdir.

Zəngəzur qəza rəisinin 114 nömrəli teleqramında deyilir: "Ermənilər Andranikin başçılığı və ingilis-fransız nümayəndələrinin razılığı ilə dini fərqə görə 30-dan artıq müsəlman kəndi dağıdıb, yandırıb və əmlakını talan ediblər. Qaçıb qurtara bilməyən sakinlər vəhşicəsinə öldürülmüşdür".

Zəngəzur qəzasının idarə müdirinin 1919-cu ilin yanvarında verdiyi 349 nömrəli teleqramında isə bu fikirlər yer alır: "Quşçulu, Əcili, Atqız kəndləri yanvar ayının ilk günlərində dağıdılmış, Şəhərcik, Acağu, Oxçu mühasirəyə alındıqdan sonra ermənilər tərəfindən zəbt edilmiş, Kirətağ, Mollalı, Qovşud, Qarabaşlar, Baharlı, Daşbaşı, Mahmudlu, Keynəşin, Həcəti, Kurut, Pəyhan, Kırs, Acıbac kəndləri ermənilər tərəfindən mühasirədə saxlanmışdır".

Tarixi mənbələrdə qeyd olunur ki, Qafanda vaxtı ilə mövcud olan 130 kənddən 26-da ermənilər yaşayırdı. Hal-hazırda isə Qafan tam erməniləşdirilmiş, hətta mövcud yer adlarımız da xəritələrdən silinmişdir.

Qafanda azərbaycanlılar, əsasən, Kığı və Oxçu dərələrində yerləşən Quşçulu, Mollalı, Qarabağ, Qovşud, Baharlı, Kığı, Pürülü, Mahmudlu, Kəypişin, Həçəti, Kurut, Çiriş, Kırs, Acıbac, Kərd, Yuxarı Kərd, Gotalı, Müsəlləm, Oxçu, Atqız, Aralıq, Pirdavdan (Pircavidan), Gabadin və digər kəndlərdə yaşamışlar.

Qafan rayonu ərazisi, əsasən, türk mənşəli etnoslarla zəngin olmuşdur: qapan, ecanan, oxtar, çobanlı,hünüt, sabadin, quşçulu, mollalı, qarabaş, baharlı, pürülü, mahmudlu, kurut, şotanlı, oxçu, məzrə, gödəkli və s. Bu etnosların hər biri öz keçmişini yaşayış məntəqəsi adlarında, oronim və hidronimlərdə yaşatmaqdadır. Dağların zirvəsində əsrlər boyu yaşayan Qafan bölgəsi Azərbaycanın mədəniyyət və elminə, dövlətçiliyinə, güc strukturlarına çox dəyərli insanlar bəxş etmişdir.

Ötən əsrin tariximizdəki məğlubiyyət izlərini Vətən müharibəsindən sonra Müzəffər Ali Baş Komandanın dəmir yumruğuna güc qatan ordumuzla silməyi bacardıq. Vətəni bütövlüyünə, suverenliyinə qovuşdurub tarixi ədalətin tam zəfər çalmasını dünyanın da şahidliyi ilə gerçəkləşdirmək ərəfəsindəyik. Haylara yurd edilən torpaqlarımıza yenidən qovuşmaq üçün bütün cəbhələrdə ayıq-sayığıq. Gizlədilən həqiqətləri dünya görməli və reallıqla barışmalıdır.




Şamaxı zəlzələsinin nəticələrinin aradan qaldırılmasında onun xidmətlərindən çoxları xəbərsizdir. Böyük bir maarifçilik hərəkatına başçılıq edən bu şəxs Nəriman Nərimanovun "Nadir şah" əsərinin, Nəcəf bəy Vəzirovun dram əsərlərinin, Məhəmməd Hadinin şeirlər kitabının, Axund Mirməmmədkərim Mircəfərzadənin üç cildlik "Quranın şərhi və tərcüməsi" əsərinin nəşrinə də köməkliyini əsirgəməmiş, xalqımızın maariflənməsi üçün əlindən gələni etmişdi. Söhbət hansı tarixi şəxsiyyətdən gedir?

*"WhatsApp":*
*+994 55-875-16-39*

# Olimpiya çempionu Polis Akademiyasında

## Hidayət Heydərov kursantları sınağa çəkdi

Bu günlərdə idmanın kütləviliyinin artırılması, eləcə də kursantlar arasında cüdo idman növünə marağı nəzərə alan DİN Polis Akademiyasının rəhbərliyi Avropa, dünya və 2024-cü ildə Paris şəhərində keçirilən Akademiyasının rəisi, polis general-mayoru Canpolad Daanov ona qarşıdan gələn Avropa çempionatında uğurlar arzulayıb.

Seminar zamanı H.Heydərov Olimpiya çempionatında ona çempionluq




Yay Olimpiya Oyunlarının qalibi, həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən "Şöhrət" ordeni ilə təltif olunmuş Hidayət Heydərovu təhsil ocağına dəvət edib. Seminar məşğələdən öncə fəxri qonaqla həmsöhbət olan Polis qazandıran fəndi göstərib, kursantların fiziki hazırlığını və onların fəndləri mənimsəmə qabiliyyətini yoxlayıb.

Çempionumuz seminarın sonunda qarşıdan gələn cüdo üzrə yarışlarda kursantlara uğurlar arzulayaraq onlarla xatirə şəkilləri çəkdirib.

# İxtiraçısı qadındır

## Bu mexanizm təhlükəsizliyə xidmət edir

Bugünkü avtomobillərdə əsas təhlükəsizlik elementlərindən biri olan şüşə silgəcləri ilk dəfə 1903-cü ildə Meri Anderson adlı qa-



dın tərəfindən ixtira edilib. Onun bu sadə, lakin önəmli kəşfi illər sonra bütün dünyada standart avtomobil avadanlığına çevriləcəkdi.

1903-cü ilin qışında Meri Anderson Nyu-Yorka səfər edərkən, sulu qar yağışı zamanı pəncərənin buğlanması və çirklənməsi səbəbilə tramvay sürücüsünün ön şüşəni açıq şəkildə idarə etdiyinin şahidi olur. Təhlükəsizliyi sual altında qoyan vəziyyəti aradan qaldırmaq üçün o yaşadığı Alabama ştatına qayıtdıqdan sonra xüsusi bir mexanizm hazırlamağa qərar verir.

Anderson avtomobillərin ön şüşəsini təmiz saxlamaq üçün əl ilə idarə olunan bir şüşəsilən mexanizmi dizayn edib. Bu mexanizm, avtomobilin içərisində yerləşən bir qol vasitəsilə işləyirdi və yaylı qollu silgəc ön camın üzərində irəli-geri hərəkət edirdi. Silgəcin üzərindəki ağırlıq isə şüşə ilə silgəc arasındakı təmasın stabil qalmasını təmin edirdi.

Bu yenilikçi ideya üçün Anderson 1903-cü ildə 17 illik patent hüququ aldı. Onun hazırladığı sistem, öncədən mövcud olan oxşar qurğulardan fərqli olaraq, ilk real funksional və təsirli sistem hesab olunur.

# Kod adı "SİT" idi…

## Onun Lenin haqqında dedikləri bu gün də diqqət çəkir

Bu gün onun barəsində dünyanın ən təhlükəli, ən sirli casuslarından biri kimi danışılır, haqqında əfsanələr dolaşır. Karl Hahn, Pedro Qarsia: bu "adlar" da onundur. Ancaq o, daha çox Sidney Relli adı ilə tanınıb. Sidney Relli 1873-cü ildə Odessada doğulub. Relli 6 ölkənin casusu kimi həm bu, həm də digər tərəfin əleyhinə işləyib.

Yaponiyanın xüsusi xidmət orqanı olan "Kem-Peitai" onu Braziliyaya Pedro Qarsia adı ilə gizli məlumatlar toplamağa göndərmiş və istəyinə nail ola bilmişdi.

Britaniyanın gizli xidmət orqanı tərəfindən ona Ser George Sidney Relli adı verilmişdi. Relli 1909-cu ildə həmin dövrün varlılarından sayılan Viliam Noks Arçinin Rotşild ilə başladığı neft müharibəsində iştirak edir. Arçini zərərsizləşdirmək üçün çalışdığı gizli xidmət orqanının tapşırığı ilə Fransaya gedir. Relli burada katolik rahib qılığında Arçinin yanına gedir. Arçi bu savaşda uduzur və neft Rotşildin əlinə keçir. Sidney Relli Osmanlı kəşfiyyatı üçün də çox vacib işlər görüb, ancaq nədənsə bu barədə o qədər də danışılmır. Rellinin kod adı "SİT" idi. Almanlar onu Siqismund kimi tanıyırdılar, Avropa və Osmanlıda isə "Mister Constantine" adı ilə tanınırdı.

### Qafqaz neftinin izi ilə

Bir gün Relli İngiltərəyə gəlir və dindar bir xristian ailəsi ilə tanış olur. Burada işlədiyi müddətdə bir qadınla münasibət qurur. Qadın evli olduğundan Relli ilə o qədər də maraqlanmır. Relli isə ondan əl çəkmir, nəhayət, könlünü ələ ala bilir. Relli bundan sonra qadının ərini yox etmək qərarına gəlir və onu zəhərləyir. Nəticədə qadının əri dünyasını dəyişir. Bir müddət sonra qadın ərinin öz əcəli ilə ölməsinə aid sənədləri imzalayan həkim Andre adlı şəxslə evlənir. Maraqlıdır ki, mərhumun öz əcəli ilə ölməsinə dair sənədləri imzalayan bu həkim haqqında heç bir məlumat olmasa da, əslində həmin həkim Sidney Relli idi. O, yeni ailə qurduğu qadın sayəsində çox zəngin olmuşdu. Relli 1901-ci ildə Qafqaz nefti haqqında məlumat toplamaq üçün İstanbula gəlir. Tapşırığı yerinə yetirdikdən sonra Misirə gedir, ordan da Çin və Yaponiyaya yollanır.

Relli Almaniyada tanınmış Krupp fabrikində baş usta kimi işləsə də, heç bir kəs ondan zərrə qədər şübhələnməmişdi. O Almaniyada olduğu müddətdə Osmanlı-Alman İttifaqı qurulmuşdu. Sonra Britaniya gizli kəşfiyyat təşkilatı Mİ 5-in direktoru Viliam Melvule tərəfindən Sidney Relli xüsusi bir tapşırıqla İstanbula göndərilmişdi. Rellinin vəzifəsi Osmanlının alman "Blohm und Voss" firmasının gizli gəmi sifarişlərini öyrənmək və təxribat törətməkdən ibarət idi. Nəhayət, Relli 1914-cü ildə, müharibənin başladığı bir dövrdə öz vəzifəsini yerinə yetirdi və Londona qayıtdı. Casusluq Relli üçün təkcə sənət yox, həm də ən sevimli məşğuliyyətə çevrilmişdi. Relli lazım olduqda vəzifəsini yerinə yetirmək üçün qadınlardan da istifadə edirdi.

Sənətinə bağlı olan bu casus o qədər professionallaşmışdı ki, vəzifəsi uğrunda gözünü qırpmadan adam öldürə bilirdi. Rellinin üç qadın agenti vardı. Bu qadınlar bir-birindən gözəl idi. Relli bu agentlərdən istifadə edərək, bir çox vəzifəli şəxslərdən istədiyi məlumatı əldə edə bilmişdi.

Yeri gəlmişkən, o, bir çox qadınla yaşamış, ancaq onların 4-ü ilə qanuni evlənmişdi. Ən maraqlı isə odur ki, evləndiyi qadınların hər biri onu başqa-başqa adlarla - Marqaret Tomas Kari Hahn, Nadine Massimo Pedro Qarsia, Nelli Burton isə Sidney Relli adları ilə tanımışdı.

Sovet rejimini devirmək üçün yeganə çıxış yolunu Lenini öldürməkdə görən Relli Leninə qarşı sui-qəsd planı hazırlayır. Sui-qəsdi isə Fanya Kaplan adlı yəhudi əsilli qadın həyata keçirməli idi. 1918-ci il 30 avqustda törədilən sui-qəsddə Lenin yaralansa da ölmür. Lakin düz 6 ildən sonra ölür. Fanya Kaplanın Lenini öldürməyə Relli tərəfindən göndərildiyini isə Sovet hökumətinin vəzifəli şəxsləri artıq bilirdilər…

### Oyunun sonu

1919-cu ildə bolşeviklər tərəfindən gizli TRUST adlı bir təşkilat yaradılır. Bu təşkilatın vəzifəsi bolşevikləri pisləmək idi. Feliks Dzerjinski təşkilatın rəhbəri kimi bu vəzifəsinin öhdəsindən yaxşı gəlirdi. Bu təşkilata inanan Fransa, Türkiyə və Almaniyaya qaçmış bir çox aristokratlar çarlıq rejiminin bərpa olunacağına ümid edərək Rusiyaya qayıdırdılar. Lakin onlar vətənə dönən kimi güllələnirlər. Sidney Relli TRUST təşkilatının qərbliləri aldatmaq üçün bilavasitə Dzerjinski tərəfindən qurulduğunu bilirdi. 1923-cü ildə "Gadfly" (Mozalan) kod adından istifadə edən Relli Rusiyaya gedərək orada qiyam qaldırmaq üçün gizli təşkilat yaradır və yenidən Vətənə qayıdır.

1925-ci ildə xüsusi bir tapşırıqla finlandiyalı bir tacirə aid sənədlə yenidən Rusiyaya qayıdan məşhur casusun budəfəki adı Sternberq idi. Rusiyada Rellini TRUST və ÇEKA təşkilatları adından çalışan, ancaq Mİ6-ya işlədiyi bilinən bir agent qarşılayır. Bu agent ona TRUST-un Moskvada da fəaliyyət göstərdiyini və onunla əlaqə yaratmağın vacib olduğunu deyir. Relli nəyə görəsə bu agentin dediklərinə inanır, ancaq son anda tələyə düşdüyünü anlayır. Relli üç həmkarı ilə birlikdə Finlandiyaya qaçmağa cəhd göstərsə də, Rusiyanın xüsusi xidmət orqanları tərəfindən həbs olunur.

Bundan sonra olanlar haqqında heç bir məlumata rast gəlinmir. Ancaq Britaniyanın israrı nəticəsində Sovet hökuməti 1927-ci ildə açıqlama verir ki, Relli 1925-ci ilin sentyabr ayında rəsmən həbs olunub. Daha sonra Britaniya kəşfiyyatı məlumat əldə edir ki, Relli 1925-ci il, dekabrın 5-də Dzerjinskinin cəlladları tərəfindən güllələnib. Sovet kəşfiyyatçıları onu sorğuya çəkərkən dediyi bir cümlə böyük çaxnaşma yaradır. Relli: "Mən 1915-ci ildə alman kəşfiyyatında işləyirdim və orada rus vətəndaşı olan bir alman casusu ilə tanış oldum. Onun adı Vladimir İliç Ulyanov Lenin idi".

Rellinin öldürülməsindən səkkiz ay sonra ingilis casusun Lenin haqqında dedikləri Feliks Dzerjinski ilə İosif Stalin arasında şiddətli mübahisəyə səbəb olur. Mübahisə zamanı Dzerjinski infarkt keçirir. 20 iyul 1926-cı ildə Sovet hökuməti Dzerjinskinin infarkt nəticəsində öldüyünü rəsmən açıqlayır.

*Aytən Tahirova*
*polis kapitanı*

POLİS
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Qiyməti 40 qəpik